Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.



Avtobioqrafik xırdalıqlar

Bəhmən SULTANLI

(əvvəli ötən saylarımızda)

İmperiya ilə bağlı qeydlərimi davam etdirirdim. Bu işdə artıq ayıq, həm də sərişteli idim. Moskvada siyasi mühitin yeniləşmə ehtimalını irəli sürməyə əsas verən şərait yaranması duyulurdu. Burada müəyyən gərginlik nəzərə çarpmaqda idi. Moskvayanı şəhərlərdən, qəsəbələrdən, kəndlərdən... Moskvaya kolbasa, sosiska, konserv, araq, çaxır, pivə... almaq üçün axın başlamışdı. Ona görə də ərzaq dükanlarının qarşısındakı növbələrdə gərginlik yaranırdı.

Bu gərginlik moskvalıları rahatsız edirdi. Moskvayanı əyalətlərdə ərzaq qıtlığı, Moskvada isə, əksinə, ərzaq bolluğu mövcud olması əyalətdə yaşayanlara Moskvaya qarşı qısqanclıq yaradırdı, onlarda belə ayrı-seçkiliyə etiraz doğururdu. Moskvalılar isə, əyalətlərdə ərzaq qıtlığının yaranmasını təşviqlə qarşılayırdılar. Bunları müşahidə etmək çətin deyildi. Artıq rus-sovet imperiyasının gələcək taleyini proqnozlaşdırmaq üçün meyar formalaşmaqda idi. Bu müşahidələrimlə yanaşı, buna bənzər müşahidələrim imperiya haqqında düşüncələrimin inkişafına, bir daha güclənməsinə yardımçı olurdu.

Elmi yollanış müddətim sona yaxınlaşanda başladığım elmi işi yekunlaşdırmaq üçün vaxtımın çatmadığını, həmin müddətin artırılmasını universitet rəhbərliyindən teleqram vasitəsilə xahiş etdim. "Dostlarım"ın buna razı olmayacağını, universitetin məni təcili geri çağıra biləcəyini öncədən bilirdim. Ona görə də teleqram vurduğum poçtla bir daha əlaqə saxlamadım. İşlərimi yüksək səviyyədə yerinə yetirib Bakıya döndüm. Məni ciddi axtardıqları, dəfələrlə teleqram yola saldığım poçta teleqram vurduqları, məni məsə, cavabla maraqlanmadığım məsələsi ortaya atıldı. Durum son dərəcə mürəkkəbləşmişdi.

Moskvada çox gərgin işlədiyimə görə çoxlu təcrübi sonuclar əldə etmişdim, nüfuzlu jurnallarda loqansenlə Rassadinin ortaq müəlliliyi ilə çap etdirmək üçün bir neçə məqalənin materialını gətirmişdim, bir məqalə də jurnala təqdim etmişdim. Gördüyüm işlərlə paralel dissertasiya işimi yeniləşdirmişdim. Bunlarla yanaşı, Yahya müəllim işdən azad olunmaq təhlükəsindən məni xilas etdi. İşlərim yoluna düşdü, dostlarım, məsləkdaşlarım olan Əbülfəz Hüseyni ilə, Mirzə Abbaslı ilə, Məhəmməd Hatəmi Tanlakın ilə, Qafar Kəndli ilə, Cəfər Qiyasi ilə, Əlisa Nicatla, Beytulla Şahsoylu ilə... əlaqələrimi bərpa etdim, elmi işlərimi yeni ideyalar üzərində uğurla davam etdirməyə başladım. Sovet dövlətini, Kommunist rejimini saxlayan diraklərin artıq sürətlə çürüdüyünü buruza vermə qadir olan Moskvada əldə etdiyim faktlarla Bakıda əldə etdiyim faktlar arasında əlaqəni çətinliksiz ortaya çıxarırdım.

Artıq imperiya özünün "cidanı çuvalda gizlətmək" qabiliyyətinin itməkdə olduğunu ört-basır edə bilmirdi. Moskvadan imperiyanın çökəcəyini deməyə əsas verən zəngin təəssüratla, geniş, əhatəli qeydlərlə gəlmişdim. Bakıda, bütövlükdə Azərbaycanda bu baxımdan ciddi faktlar mövcud idi. Çox da keçmədi, SSRİ adlı imperiyanın iqtisadi, siyasi... tənəzzülü qabarıq şəkildə hiss olunmağa başladı. Bir qədər vaxtdan sonra bu tənəzzül ərzaq talonlarına keçilməsində əyani olaraq ifadə edildi. Durum ağırlaşır, kommunizmə olan ümidlər azalır, imperiyadan narazılar çoxalırdı. Bu olqıların incələnməsinə, imperiyanın ziyanına işləyən təbliğinə ehtiyac artırdı, şərait genişlənirdi, geniş meydan açılırdı. Bunu sovet dövlətinin başçıları özləri də duyurdu. Ona görə də imperiya qudzlaşaraq yan-yörəsini qapmalı olurdu. 1975-ci ilin sonlarında yenidən elmi yollanış götürüb dissertasiyamı, lazımi sənədləri özümlə Moskvaya apardım, SSRİ EA Spektroskopiya institutunun dissertasiya müdafiəsi şurasının elmi katibi fizika-riyaziyyat elmi'ri doktoru Məmməd Əliyevlə məsləhətləşdim. Məmmədin Moskvanın elm mühitində böyük nüfuzu var idi. O, müdafiəni Karpov adına Moskva Dövlət Fiziki kimya institutunda keçirməyi bildirdi, oradan özünün rəzalıq alacağını dedi, rəzalıq aldı, işi müdafiə şurasına təqdim etdim, tanış oldular, müzakirə üçün vaxt təyin etdilər, təyin olunan vaxt getdim. Şuranın elmi katibi dissertasiyanın ADU-da müzakirə edilmədiyi, orada yerinə yetirilmədiyi barədə məktub aldıqlarını, buna görə də həmin şurada müdafiəsini təşkil etməyin mümkün olmayacağını nəzərimə çatdırdı... Bu, Tiflis universitetində müdafiə şurası sədrinin dediklərindən fərqlənmirdi. Məsələ məne aydın idi. Yenə də çıxış yolumu dissertasiya işimin müdafiəsində gördüm.

Moskvadan geri döndüm, elmi işlərimi əzmlə davam etdirdim, yeni-yeni nəticələr aldım, elmi məqalələr dərc etdirdim. Yerinə yetirdiyim elmi işlər müdafiəmə ümidlərimi daha da artırırdı, həm də namizədlik dissertasiyasından əz sonra doktorluq dissertasiyası müdafiə edəcəyimə inamlarımı möhkəmlədirdi. Çünki elmi məqalələrimin sayı, sanballı, aldığım elmi sonucların həcmi buna şərait yaradırdı. Mmoskvaya budəfəki gedişim də yeni-yeni sonuclar çıxarmağıma, Bakıya yeni faktlarla qayıtmağıma yardım etdi. Moskvanın siyasi mühitinə aid fikirlərim eqidə dostlarımda yenə də güclü maraq oyatdı. 1983-cü ildə rus-sovet imperiyası ilə bağlı sərt fikirlərimlə "fəlsəfi" fikirlərimin qeydlərini ayrı-ayrı dəftərlərdə davam etdirməkdə davam edirdim. Düşündüm, bir təhlükə yaransa, birinci dəfteri yandırıb məhv etməli olsam, ikincini saxlayaram. Artıq, zaman xeyli dəyişmişdi. İmperiyada iqtisadi, siyasi... tənəzzülə "geydirilən don"a inanmayanlar günü-gündən çoxalırdı, narazı təbəqə durmadan artırdı. Bunun səbəblərindən biri imperiyada ədalətsizliyin, haqsızlığın həm dözülməz həddə çatması, həm də qarşısalınmazlığı idisə, başqa səbəbi ABŞ-nın təşəbbüsü ilə başlanmış silahlanma yarışına imperiyanın cəlb olunması, sonucda silahlanma xərcləri hesabına iqtisadi gerilməninin ardıcıl saciyyə alması, rus şovinizminin gücənməsi, ayrı-ayrı xalqların oyanışı idi. Bunlara aid sistemli qeydlər aparmaq, ciddi inceləmələrə baş vurmaq, baltikyanı ölkələrdə gedən, eyni zamanda dönməz məcraya yönələn prosesləri, Azərbaycanda, Ukraynada, Qazaxıstanda, Özbəkistanda, Qırğızıstanda, Gürcüstanda... başlayan milli oyanışları nəzərə almaq lazım gəlirdi. İmperiyanın tam sökülməsi, çökməsi üçün onun iqtisadiyyatının çökməsi vacib şərtlərdən idi. Ardıcıl tətillər keçirmək, insanların daha çox istismar olunan təbəqələrini bu işə cəlb etmək İqtisadiyyatın çökməsinə, dövlət strukturlarının ifliciə səbəb ola bilecək amillərdən sayılırdı. Ancaq ayıq imperiya bu işləri çox ciddi şəkildə nəzarətə götürmüşdü. Çıxış yolları axtarılırdı.

Mixail Qorbaçovun o zamankı Sov.İKP MK Baş katibi yerini tutması SSRİ-də tələtüm baş verəcəyi öncəgörümünü doğurmaqda idi. Qorbaçovun həyata keçirmək istədiyi islahatlar buna əsas verirdi. Onun əhaliyə uzunmüddətli kreditlər paylayaması, spirtli içkiləri qadağan etməsi... imperiya büdcəsinin çökməsinə çox güclü, praktiki, gerçək təkan oldu. Dəfterdə imperiyanın çökməsini labüdləşdirən başqa məqamları da incələmişdim. Bu məqamlar sırasında Qorbaçovun rus şovinizmini qızışdırması, bu şovinizmin tərkib hissəsi kimi, imperiyada ən nüfuzlu, ən güclü dövlət xadimi kimi tanınan, dünya miqyasında böyük nüfuz sahibi olan, dünya dövlətləri başçılarının ön cərgəsində, həm də daha uca görünən türk oğlunu - Heydər Əliyevi Sov. İKP MK Siyasi bürosundan, SSRİ-nin dövlət rəhbərliyindən uzaqlaşdırması, ekstremistçiliyə, separatçılığa meydan verməsi, bu fitnəgirlikdə erməni millətçilərini qucağına alaraq sığallayıb irəli çıxarması, sonra Azərbaycana qısqırması... başlıca yer tuturdu. Dəfteri yazarkən çox gərgin düşünməli olurdum, böyük əmək sərf edirdim. Yazı sürətim hədsiz dərəcə zəif olduğundan, "iynə ilə gor qazmağa" bənzəyən bu əməyim bir-beş artırdı.

Çoxsaylı müşahidələrin, mütəlilərin, incələmələrin sonucuna şəxsi münasibətlərimi qatıb ümumiləşdirmələr aparırdım. Ancaq əməyimi vaxtaşrı məhv etməli olsam da, bütün bunlara çox da təəssüflənmirdim. Çünki həmin gərgin əməyimdən yetərincə faydalanmışam. Bu əməyim fikrimi toplamaq, onu ifadə etmək qabiliyyətimi artırıb, bir çox məsələləri dərindən qavramaq imkanımı gücləndirib, mənə sərbəst yazı yazmaq sərişteşi qazandırıb, elmi təfəkküründə yüksəlməsində yardımçım olub, siyasətdən baş açmağımda başlıca rol oynayıb. Bu anlamda yanaşmaqla sanıram ki, əməyim itməyib. Bir də incələmələrimdə çox vaxt Mirzə İbrahimovun, Rəsul Rzanın, Xudu Məmmədovun, Xəlil Rza Ulutürkün, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Asif Atanın, İlyas Əfəndiyevin, Anarın, Əbülfəz Hüseyninin, Qafar Kəndlinin, Əlisa Nicatın, Cəfər Qiyasinin, Beytulla Şahsoylunun... milli anlamda olan fikirlərinə, çalışmalarına dönə-dönə istinad edirdim. Dəfterlərin ələ keçməsi bunları da zərbə altında qoya bilərdi, onların üzərində DTK nəzarətini gücləndirərdi, milli özüllü çalışmalarını məhdudlaşdırardı. Bu anlamda da dəfterlərin məhv edilməsi qaçılmaz zəruret idi. Bunları da düşünəndə təəssüflənməyə yer qalmır. Bir də, imperiyanın çökdüyü vaxtlar dəftərdəki fikirlərimin bir çoxunu mətbuatda çap elətdirmək imkanı qazandım.

İmperiya dönəmində yazılı şəkildə evdə saxlamağa belə, ehtiyatlandığım fikirlərimi imperiyadan qurtulduqdan sonra açıq mətbuatda çap elətdirdim. Bunu özüm üçün ən böyük bəxtiyarlıq sayıram. Bu bəxtiyarlığın yolunda heç bir itkimə təəssüflənmirəm, həm də heç vaxt təəssüflənməərəm. İmperiya dönəminde son dərəcə ayıq olmuşam, oyaq olmuşam, özümü imperiyanın nəzərindən yayındıra-yayındıra onun eleyhinə olan ardıcıl, yorulmadan apardığım işlərimdə, çarpışmalarımda, elmi çalışmalarımda çox məhsuldar işləmişəm. İmperiya zəncirindən qurtulmaq, müstəqilliyə qovuşmaq yolunda canımı vermək lazım olardısa, tərəddüdsüz hər an buna hazır olmuşam. 1988-ci il olaylarındakı olan olayları inceləyirdim, ona öz münasibətlərimi bildirirdim, öncəgörmələr irəli sürürdüm. 1988 il noyabrın 17-den dekabrın 5-dek yüz minlərlə adamın keçirdiyi oturaq mitinqlər SSRİ məkanında ciddi bir durum yaratdı. Bakıda fövqələdə vəziyyət tətbiq olundu. Rusiyanın müxtəlif regionlarından gəlmiş onlarca milis, prokurorluq, təhlükəsizlik orqanı əməkdaşları istintaqa girişdilər, iş yerlərində, evlərdə axtarışlar keçirməyə başladılar. Mənim də istintaqa cəlb olunduğumu bilən kimi üçüncü dəfteri yandırıb itirdim. İstintaqa verdiyim izahatlar evimdə axtarış aparılmasına şərait yaratmadı. Mən isə, artıq imperiya haqqında qeydlər, incələmələr apardığım dəftəri tələsik məhv etmişdim. İmperiya 88-ci il noyabr-dekabr oturaq mitinqlərini qəddar üsullarla dağıtdıqdan sonra SSRinin müxtəlif guşələrindən prokurorluq müstəntiqlərini, təhlükəsizlik orqanı işçilərini Bakı şəhərinə, respublikamızın rayonlarına göndərərək olayın aktivlərini, iştirakçılarını istintaqa cəlb etdilər. O zaman məni də bir neçə dəfə sorğu-suala tutdular, məndən də izahat tələb etdilər.

(Ardı var)